# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 18

**Bakı şəhəri** "5" fevral 2018 il

**Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyinin yeni tərkibinin təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 4.4-cü bəndini və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**Əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyi (bundan sonra – Katiblik) üzvlərinin sayı 3 nəfərdən ibarət aşağıdakı tərkibdə təsdiq edilsin:

**Katibliyin rəhbəri**

Azər Rzayev - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Ümumi şöbəsinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun müdiri

**Katibliyin üzvləri:**

Aygün Əliyeva - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Hüquq şöbəsinin böyük məsləhətçisi;

Əzizə Cəfərova - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Ümumi şöbəsinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun məsləhətçisi.

Əsas: Apellyasiya Şurasının sədri Samir Vəliyevin təqdimatı.

2. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2016-cı il 12 fevral 3 nömrəli Əmri qüvvədən düşmüş hesab edilsin.

3. Ümumi şöbə bu əmrin surətini Apellyasiya Şurasının və Katibliyin üzvlərinə çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**